**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 17-ci bəndinə əsasən **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti kollegiyasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi.

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavinləri

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Təşkilat-nəzarət baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərini tənzimləmə baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya nəzarəti baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Kadrlar və kadr hazırlığı idarəsinin rəisi.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 aprel 2013-cü il
№ 2854